BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Sosial-siyasi elmlər seriyası* 2007

# NORMATİV-HÜQUQİ AKTLARIN XÜSUSİ NÖVÜ KİMİ MƏCƏLLƏLƏRİN HÜQUQİ TƏBİƏTİ HAQQINDA

**E.R.QULİYEV**
*Baкı Dövlət Universiteti*

Müasir Azərbaycan hüquq tarixində əhəmiyyətli hadisələrdən biri кimi şübhəsiz кi, qanunvericiliyin məcəllələşdirilməsini göstərməк lazımdır. Məcəlləşdirmə işinin конкret tarixi dövr ərzində ümumi cəhətdən xaraкterizə edilməsi üçün isə məcəlləşdirmə aкtlarının qanunvericiliк sistemindəкi statusu məsələsinə də diqqət yetirməк zəruridir. Bu sırada ilк növbədə məcəllələrin adını çəкməк lazımdır. Əvvələn, ona görə кi, qanunvericiliyin məcəlləşdirilməsi işində məcəllələr istifadə edilən əsas formalardan birini təşкil edir. Həmçinin məhz onların vasitəsilə qanunvericiliyin bütün başlıca sahələri qaydaya salınaraq islah edilir. Bu baxımdan müstəqilliк əldə edildiкdən sonra Azərbaycan qanunvericiliyində bu tip normativ aкtların yeri və statusu məsələsi xüsusi diqqət cəlb edir.

Məlum olduğu кimi, sovet hüquq doкtrinasında müəyyən qüsurlar və çatışmazlıqlar olsa belə, məcəllləşdirmə aкtlarının xüsusi yeri və onların cari qanunvericiliк aкtları ilə oxşar və fərqli cəhətləri dəqiq təsbit edilmişdir (1).

Sovet qanunvericiliyinin inкişafı təcrübəsində də məcəlləşdirmə fəaliyyətinin özünəməxsusluğu qəbul edilərəк, onun nəticəsində ərsəyə gələn aкtların əlahiddəliyi bu və ya digər dərəcədə rəsmən tanınırdı. Belə кi, 1936-cı il tarixli SSRİ Konstitusiyasında məcəlləşdirmə aкtları barəsində xüsusi müddəalar təsbit edilmiş və onların sırasına "Əsas başlanğıclar, "Əsaslar" və məcəllələrin adları çəкilirdi. Bu zaman istifadə edilən başlıca üsul adları çəкilən normativ sənədlər vasitəsilə ictimai münasibətlərin hansı sahəsini tənzimləməli olduğunun göstərilməsindədir. Məsələn, Konstitusiyanın 14-cü maddəsinin müvafiq bəndləri ilə torpaqdan, meşədən, sudan və yerin təкindən istifadə haqqında, təhsil və səhiyyə haqqında, əməк haqqında, niкah və ailə haqqında, məhкəmə quruluşu, cinayət və mülкi mühaкimə icraatı haqqında Əsasların qəbul edilməsi SSR İttifaqının, müttəfiq respubliкaların məhкəmə quruluşu və mühaкimə icraatı haqqında qanunvericiliк, həmçinin mülкi və cinayət məcəllələrinin qəbul edilməsi isə müttəfiq respubliкaların səlahiyyətlərinə aid edilmişdir.

Müttəfiq respubliкa кonstitusiyalarında isə ilк öncə (30-50-ci illərdə) sözügedən normativ-hüquqi aкtlara dair heç bir müddəa əкs olunmamışdır. Vəziyyət yalnız sovet qanunvericiliyinin məcəlləşdirilməsinin iкinci dalğası ərəfəsində, daha dəqiq 11 fevral 1957-ci il tarixli SSRİ

Qanununun qəbul edilməsindən və Ümumittifaq konstitusiyasında müvafiq düzəlişlərin edilməsindən sonra (bu düzəlişlərlə müttəfiq respublikaların qanunvericilik səlahiyyətləri bir qədər genişləndirilmişdir) dəyişdi. Nəticədə müttəfiq respublika konstitusiyalarında məcəlləşdirməyə dair bir sıra müddəaların təsbiti həyata keçirilmişdir.

Lakin sözügedən məsələnin konstitusion həlli müxtəlif respublikalarda fərqli olmuşdur. Məsələn, RSFSR, Qırğızıstan, Qazaxıstan və Latviya Konstitusiyalarında mülki və cinayət məcəllələrinin, Gürcüstanın Əsas qanununda isə bütövlükdə qanun və məcəllələrin qəbulu səlahiyyətləri ali dövlət hakimiyyəti orqanına aid edilsə də, digər respublikaların, o cümlədən Azərbaycanın konstitusiyasında məcəlləşdirməyə dair heç bir müddəa yox idi. Yəni Azərbaycan qanunvericisi respublika məcəllələri dairəsinin müəyyən edilməsini yalnız ümumittifaq Konstitusiyasının və qanunlarının öhdəsinə buraxırdı.

Qeyd etmək lazımdır ki, özlərinin təyinatına görə ümumittifaq "Əsasları" və "Əsas başlanğıcları" konkret sahəyə dair başlıca prinsipləri müəyyən etməklə yanaşı, həmin prinsipləri konkretləşdirməli olan respublika məcəllələrinin də qəbul edilməsini nəzərdə tuturdu. Burada Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İslah-Əmək Məcəllələrinin, Əmək Qanunları Məcəlləsinin, Nikah və Ailə Məcəlləsinin, Torpaq və Su Məcəlləsinin qəbul edilməsi nəzərdə tutulmuşdur. Ehtimal ki, respublikamız da ittifaq qanunvericiliyinə əsaslanmağı üstün tutaraq, bu sahədə əlavə heç bir rəsmiləşdirməyə yol verməməyi üstün tutmuşdur.

1978-ci ildə qəbul edilən Azərbaycan SSR yeni Konstitusiyasında da vəziyyət əvvəlki kimi idi. Ən yaxşı halda burada söhbət yalnız ümumiyyətlə «qanunlar» və «qanunvericilik»dən gedirdi (Konstitusiyanın 104-cü maddəsində olduğu kimi).

Sovet dövründə qəbul edilən məcəllələrin təsdiq edilməsi haqqında qəbul edilən qanunlarda bu barədə bir şey deyilməsə də, həmin aktların özündə onların qanunvericilik sistemindəki statusu barəsində ayrıca müddəa təsbit edilmişdir. Məsələn, 1960-cı il tarixli Azərbaycan SSR Cinayət Məcəlləsinin 4-cü maddəsində həmin məcəllənin SSRİ cinayət qanunvericiliyindəki yeri təsbit edilmişdir. Eyni müddəalar demək olar ki, bütün digər sovet məcəllələrində də əks olunmuşdur. Məsələn, Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsinin 1-ci maddəsinin 1-ci hissəsində deyildiyi kimi, respublika ərazisində cinayət işləri üzrə icraat qaydası SSR İttifaqı və müttəfiq respublikaların Cinayət mühakimə üsulunun Əsasları, onlara müvafiq olaraq verilən SSR İttifaqının digər qanunları və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir.

Müstəqillik dövründə qəbul edilən 1995-ci il Konstitusiyasına gəldikdə isə burada da məcəlləşdirməyə dair heç bir konkret müddəa əks olunmamışdır. Baxmayaraq ki, həmin Konstitusiya faktiki olaraq ölkəmizdə həyata keçirilən hüquqi islahatların, ilk növbədə də yeni məcəlləşdirmə fəaliyyəti üçün hüquqi əsası rolunda çıxış edirdi. Əlbəttə, sözügedən məsələnin konstitusion tənzimlənməsi heç də bütün dövlətlər üçün səciyyəvi hal deyil və dünya təcrübəsində də zəruri hesab edilmir. Elə buna görə də Azərbaycan Respublikasının Konstitusiyasında da məcəlləşdirmə haqqında bir söz deyilməməsi çatışmazlıq kimi

dəyərləndirilməməlidir.

Lakin, normativ-hüquqi aktlar sistemini, hüquqyaratma prosesini nizamlayan rəsmi aktlarda bu məsələ təfsilatı ilə öz həllini tapmalı idi. Bu səbəbdən müstəqillik dövründə adı çəkilən məsələlərin formal cəhətdən təsbit edilməsi dərəcəsini müəyyənləşdirməliyik. Müstəqillik dövründə qanunvericilik sisteminin hüquqi bazasını təşkil edən qanunların təhlili aşağıdakıları bildirməyə əsas verir.

"Normativ-hüquqi aktlar haqqında" 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununda bu məsələ ilə əlaqədar ətraflı bəhs edilməsə də, 1999-cu ildə qəbul edilən eyniadlı Qanununda yalnız 23.4 və 23.10-cu maddələrdə onlardan qismən danışılır. Birinci müddəada göstərilir ki, məcəllənin daxili strukturu digər normativ-hüquqi aktlardan fərqli olaraq başqa əsaslarla da qurula bilər (burada həmin müddət 23.1-23.3-cü maddələrinə münasibətdə təsbit edilir). İkincisi isə, müəyyən edir ki, məcəllənin, zərurət olduqda isə, həmçinin həcm baxımından iri olan digər normativ-hüquqi aktın strukturuna mündəricat da əlavə edilir. Bundan əvvəl həmin Qanunun 14-cü maddəsində məcəlləşdirmə fəaliyyəti normativ sənədləri qaydaya salmanın növlərindən biri kimi göstərilir.

Beləliklə, sözügedən qanundan yalnız onu müəyyən etmək mümkün oldu ki, məcəlləşdirmə fəaliyyəti Azərbaycanda normativ-hüquqi aktların qaydaya salınması ilə bağlı olan bir fəaliyyətdir, onun nəticəsində tərtib olunan əsas aktlardan biri kimi məcəllə normativ-hüquqi aktların xüsusi növüdür və onun bu xüsusiyyəti struktur ünsürlərinin quruluşunda təzahür edir. Təbii ki, bu cür vəziyyəti heç də qənaətbəxş hesab etmək olmaz.

Hər şeydən əvvəl ona görə ki, «Normativ-hüquqi aktlar haqqında» qanunda məcəlləşdirmə fəaliyyətinin əsas prinsipi və qaydaları, məcəlləşdirmə aktlarının növləri, onların qanunvericilik sisteminə daxil olan digər aktlarla qarşılıqlı nisbəti məsələsi öz əksini tam tapmamışdır. Qanunun təyinatı, məqsəd və vəzifələri isə bunu tələb edir.

Məcəllələrin qəbul edilməsinə dair mövcud hüquqi praktikaya gəldikdə isə, burada da bu məsələnin hər məcəllənin özündə, yaxud onun təsdiq edilməsi ilə əlaqədar verilən qanunda həll edilməsinə cəhdlər də mövcuddur. Belə ki, «Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" 2000-ci il tarixli Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq mülki qanunvericilik sisteminə daxil olan, lakin yeni Mülki Məcəlləyə uyğun gəlməyən normativ-hüquqi aktlar həmin Məcəlləyə uyğunlaşdırılanadək tətbiq edilə bilməz. Eyni prinsip mülki-hüquq normalarını müəyyənləşdirən digər (yəni mülki qanunvericilik sisteminə daxil olmayan) normativ-hüquqi aktlara da şamil edilir. Başqa sözlə, onlar da Məcəlləyə zidd olmayan hissədə tətbiq edilməlidirlər.

Göstərilən qayda, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanında da inkişaf etdirilir. Belə ki, həmin fərmanın 1-ci bəndinin 1-ci abzasında qüvvədə olan qanunvericilik aktlarının, həmin bəndin 2-ci abzasında isə Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həm

sözügedən qanuna, həm də bu Qanunla təsdiq edilmiş Məcəlləyə uyğunlaşdırılmasından söhbət gedir.

«Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» 28 dekabr 1999-cu il tarixli Qanunun 5.1-ci maddəsində isə göstərilir ki, «Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinə uyğun olmayan normativ-hüquqi aktlar, onların müvafiq hissələri, müddəaları, həmçinin digər hüquqi normalar həmin Məcəlləyə uyğunlaşdırılanadək tətbiq edilə bilməz». Lakin qanunun bu müddəası Mülki Məcəllə ilə bağlı analoji haldan fərqli olaraq, Mülki-Prosessual Məcəllənin özündə də təsdiq edilir. Belə ki, sözügedən Məcəllənin 1.4-cü maddəsinə müvafiq olaraq «digər qanunlarda olan prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır». «Digər qanunlar» məfhumunun izahı isə Məcəllənin 1.1.-ci maddəsində də verilir. Bu Azərbaycan Respublikası məhkəmələrində mülki işlər və iqtisadi mübahisələr üzrə icraat qaydasını müəyyənləşdirən və Azərbaycan Respublikası Konstitusiyası, «Məhkəmələr və hakimlər haqqında» Qanun və Mülki-Prosessual Məcəlləyə aid edilməyən qanunlardır. Beləliklə, adı çəkilən maddə mülki-prosessual qanunvericilik sisteminin iyerarxiyasını və bu iyerarxiyada Məcəllənin yerini təsbit etməyə çalışmışdır.

Eyni məzmunlu müddəa Cinayət-Prosessual Məcəlləsində də öz əksini tapmışdır (CPM, maddə 2). Burada da adıçəkilən Məcəllənin Konstitusiya ilə Azərbaycan Respublikasının digər qanunları arasında orta mövqe tutduğu göstərilir.

Lakin müstəqillik dövrünün ilk illərində qəbul edilən məcəlləşdirmə aktlarının təsdiq edilməsi haqqında qanununda, həmçinin həmin aktların özündə onların qanunvericilik sistemi iyerarxiyasındakı yeri, hüquqi təbiəti, «formal statusu» barəsində heç nə deyilmir. Bir sıra hallarda bu iş Prezidentin fərmanlarının üzərinə düşürdü. Məsələn, AR Gömrük Məcəlləsinin 5-ci maddəsində gömrük işi haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tərkib ünsürləri açıqlanır. Burada əvvəlcə Gömrük Məcəlləsi, sonra «Gömrük tarifi haqqında» Qanun, daha sonra isə digər qanunvericilik aktları göstərilir. Eyni vəziyyət Torpaq Məcəlləsinin 1-ci maddəsində də müşahidə edilir. Belə ki, Torpaq Məcəlləsindən sonra torpaq qanunvericiliyinə «Torpaq islahatı haqqında» Qanun və digər normativ-hüquqi aktlar daxil edilir. Ticarət Gəmiçiliyi Məcəlləsinin 1.2-ci maddəsində isə göstərilir ki, ticarət gəmiçiliyindən yaranan münasibətlər həmin Məcəllə, AR qanunları, AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələri və onların əsasında qəbul edilən normativ-hüquqi aktlar ilə tənzimlənir.

Müxtəlif vaxtlarda qəbul edilən hər üç məcəllənin tətbiq edilməsi haqqında Prezident fərmanlarında isə məcəllələrin əvvəlcə qüvvədə olan qanunvericilik aktlarından, sonra isə Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının aktlarından üstün hüquqi qüvvəyə malik olması bildirilir. Lakin belə bir müddəa müstəsna olaraq məcəllələr üçün deyil, bütün qanunlar üçün də mövcuddur. Çünki cari qanunlarda belə sözügedən qaydalara rast gəlmək olar.

Beləliklə, qüvvədə olan məcəlləşdirmə aktlarının əksəriyyətində, onların müvafiq qanunvericilik sahəsinə aidiyyəti göstərilsə də, aparıcı rol oynaması və konstitusiyadan aşağı qüvvəyə malik digər qanunlar,

həmçinin normativ-hüquqi aktlardan üstün hüquqi qüvvəyə malik olması doktrinal şəkildə qismən tanınsa da (2), rəsmi olaraq birmənalı şəkildə müəyyən edilməmişdir. Çünki yuxarıda göstərilən maddələrin təhlilindən belə nəticəyə bilavasitə gəlmək mümkün deyil. Bu məsələ ilə bağlı yeganə istisna kimi Vergi (2.1 və 2.3-cü maddələr), Cinayət (1-ci maddə) və İnzibati Xətalar (1-ci maddə) Məcəllələrini göstərmək lazımdır.

Fikrimizcə, bu cür məcəllələrin qanunvericilik sistemindəki yeri və rolunun müəyyən edilməsi qanunvericilik sistemi, normativ-hüquqi aktların tipologiyası və onlarla bağlı olan digər məsələlərin daha dolğun tərzdə həllindən sonra tapıla bilər ki, bunlar da ayrıca tədqiqatın mövzusudur. Biz yalnız məcəlləşdirmə aktları ilə əlaqədar mövcud vəziyyəti qiymətləndirərək onların statusu və yeri haqqında məsələnin hər bir akt üçün ayrı-ayrılıqda və fərqli tərzdə müəyyən edilməsindən öncə ümumi olaraq «Normativ-hüquqi aktlar haqqında» Qanunda əks etdirilməsini zəruri hesab edirik. Bunun üçün, ilk növbədə, normativ-hüquqi aktların tipologiyasında məcəllələrin müstəqil növ təşkil etməyərək qanunların bir növü kimi çıxış etmələri, eləcə də onların cari qanunvericilik aktlarından yuxarıda dayanması və onların bununla bağlı fərqli cəhətləri, konkret şəkildə müəyyən edilməlidir.

Yuxarıda göstərilən məsələyə dair vəziyyətin işıqlandırılması müstəqillik dövründə Azərbaycan Respublikasında həyata keçirilən məcəlləşdirmə fəaliyyətinin digər mühüm xarakterik cəhəti – məcəllələrin təsdiq edilməsi haqqında qanunlarla bağlıdır. Belə ki, əvvəlki dövrlərdə həmin qanunlar yalnız müvafiq məcəllənin təsdiq olunmasını və nə zaman qüvvəyə minməsini göstərməklə kifayətlənirdisə, hazırda onlar, həm də tədiq olunma ilə bağlı digər məsələlərin də həll edilməsi vasitəsi kimi çıxış edir. Yəni burada əvvəlki məcəlləşdirmə aktlarının, cari qanunların qüvvədən düşməsi, təsdiq edilən məcəllə ilə artıq qüvvədə olan qanunvericilik aktları arasındakı nisbət və sair məsələlər öz əksini tapmışdır.

Bununla bağlı misal kimi «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» 14 iyul 2000-ci il tarixli Qanunu qeyd etmək lazımdır. Belə ki, burada yenicə qəbul edilmiş Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, əvvəlki eyniadlı normativ sənədi və ona edilmiş əlavələr, dəyişikliklər haqqında qanunvericilik aktlarının qüvvədən düşməsi və Azərbaycan Respublikasında qüvvədə olan digər qanunların, normativ-hüquqi aktların yeni təsdiq edilən Cinayət-Prosessual Məcəlləsinə uyğunlaşdırılmasınadək həmin məcəlləyə zidd olmayan hissədə tətbiq edilməsinə dair müddəalardan əlavə olaraq, yeni qəbul edilən Məcəllənin bir sıra müddəalarının qüvvəyə minməsinin təxirə salınması (maddə 2) və, əksinə, qüvvədən düşmüş hesab edilən Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsinin bir sıra müddəalarının yeni Məcəllə ilə bərabər tətbiq olunmasına dair (maddə 7) müddəalar yer almışdır.

Göründüyü kimi, məcəlləşdirmə aktlarının təsdiq edilməsi haqqında qanunların yerinə yetirdikləri funksiyalar genişləndirilmişdir ki, bunu bütövlükdə təqdirəlayiq hal hesab etmək olar. Lakin, bu zaman həmin qanunlarla tənzimlənən məsələlərin dairəsi, fikrimizcə bir qədər genişləndirilməlidir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin

fərmanları ilə müəyyən edilən qüvvədə olan qanunvericilik aktlarının yeni təsdiq olunan Məcəlləyə uyğunlaşdırılmasına dair göstəriş konkret tərzdə bu qanunlarda da öz əksini tapa bilər. Bunun üçün müvafiq düzəlişlər ediləcək qanunvericilik aktlarının siyahısı, düzəlişlərin konkret olaraq nədən ibarət olmasını göstərməklə, sözügedən qanunlarda təsbit olunmalıdır. Nəticədə həm hüquqyaratma, həm də hüquqtətbiqetmə orqanlarının yeni məcəllələrinin qüvvəyə minməsindən sonra onların müddəalarının tətbiqi xeyli asanlaşmış olardı.

Eyni zamanda həmin qanunvericilik aktlarında qüvvədən düşmüş hesab edilməli olan aktların təsbit edilməsi məsələsinə də yenidən baxılmalıdır. Çünki hazırda belə bir ənənə mövcuddur ki, həmin qanunda yalnız qüvvədən düşmüş məcəlləşdirmə aktına əlavə və dəyişikliklər edən qanunlar qüvvədən düşmüş hesab edilir. Lakin bu prinsipcə düzgün yanaşma heçab edilə bilməz. İş burasındadır ki, həmin aktlar özlüyündə müstəqil əhəmiyyət kəsb etmir, çünki məcəllələr sistemləşdirilmiş olsa da, hər bir qanun kimi, vahid normativ aktlardır. Onlara edilən hər bir düzəliş əsas mətnlə ayrılmaz şəkildə bağlıdır və əgər məcəllələr qüvvədən düşmüş hesab edilirsə, onlar həmin dövrədək edilmiş bütün əlavə və düzəlişlərlə birlikdə qüvvədən düşürlər. Məsələn, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1-ci maddəsində belə bir müddəa əks olunmuşdur ki, Azəbaycan Respublikası Cinayət qanunvericiliyi yalnız bu məcəllədən ibarətdir və cinayət-hüquq normalarını müəyyən edən hər bir qanunvericilik aktı yalnız o halda tətbiq edilə bilər ki, o, həmin məcəlləyə daxil edilsin. Bu o deməkdir ki, 2000-ci ildən bu yana Cinayət Məcəlləsinə düzəlişlərin edilməsi haqqında qəbul edilən hər bir qanunvericilik aktı müstəqil tətbiq edilmir və müvafiq məcəllənin tərkibi sayılır. Hətta həmin aktların özündə belə bu konkret bir tərzdə əks olunmuşdur. Məsələn, həmin Məcəllənin 1.3-cü maddəsində deyilir: «Cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər». İnzibati Xətalar haqqında Məcəllədə də məsələ eynilə bu cür həll edilir: «İnzibati məsuliyyəti müəyyən edən və inzibati xətalar törətmiş şəxsin tənbeh edilməsini nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olduqdan sonra tətbiq edilir» (2000-ci il tarixli İnzibati Xətalar Məcəlləsinin 1.3-cü maddəsi).

Digər tərəfdən, hüquqtətbiqetmə təcbübəsində də hansısa məcəllənin tərkibinə yenicə daxil edilmiş maddə və ya onun hissəsi məhz həmin aktın tərkib hissəsi kimi göstərilir, daha onu məcəlləyə daxil edən qanun layihəsinə xüsusi olaraq istinad həyata keçirilmir. Məsələn, cinayət işlərinə dair çıxarılan məhkəmə hökmlərində, həmçinin mülki işlərə dair məhkəmə qətnamələrində olduğu kimi.

Bütün bunlar məcəllələrin qəbul edilməsi, qüvvəyə minməsi və onlarla bağlı digər məsələlərin tənzimlənməsi haqqında qanunların təkmilləşdirilməsi zərurətindən xəbər verir. Bu məsələlərlə bağlı «Normativ-hüquqi aktlar haqqında» Qanunda sistemli şəkildə düzəlişlərin aparılması zəruri hesab edilir. İlk növbədə qanunun normativ-hüquqi aktların əsas növü kimi stasusu dəqiq müəyyən edildikdən sonra, onun təsnifatı aparılmalıdır. Bu zaman əsas təsnifat iki qrup üzrə «məcəllələr» və «cari qanunlar» qrupu üzrə aparılmalıdır. «Məcəllə»lərin normativ statusu çərçivəsində əsas məsələ onların «cari

qanunlar»a nisbətən hüquqi qüvvəsinin müəyyən edilməsi məsələsinin dəqiq normativ həlli кimi çıxış etməlidir. Fiкrimizcə, bu zaman 2000-ci il tarixli Vergi Məcəlləsinin 2.1-ci və 2.2-ci maddələrində əкs olunmuş müddəalar bütün digər məcəllələrin statusunun müəyyən edilməsi üçün nümunə кimi götürülə bilər. Ayrıca olaraq, məcəllələrin təsdiq ediməsi, qüvvəyə minməsi və bunlarla bağlı hüquqi məsələlərin həll edilməsi haqqında qanunların da dəqiq yeri müəyyən edilməlidir. Bu zaman mümкün olduğu qədər həmin qanunlara dair tipiк müddəaların məcmusu da əкs olunmalıdır.

## ƏDƏBİYYAT


1. Керимов Д.А. Законодательная техника, Ленинград, 1965; Законнодательство и законодательная деятельность в СССР (отв. ред. к.ю.н. П.И.Седугин), Москва, "Юридическая литература", 1972, стр. 177.
2. Əsgərov İ.Ə., Əsədov B.H., Azərbaycan Respublikası Mülki Məcəlləsinin kommentariyası (İ kitab), Bakı, «Qanun» nəşriyyatı, 2004, 520 s., səh.14-15.


## НОРМАТИВНЫЕ АСПЕКТЫ КОДЕКСОВ, КАК ОСОБЫЙ ВИД НОРМАТИВНО-ЮРИДИЧЕСКИХ АКТОВ


**Э.Р.ГУЛИЕВ**


### РЕЗЮМЕ


Статья посвящена анализу места кодекса как одного из основных видов кодификационных актов в системе законодательства, особенностям его статуса. Самое важное место здесь отведено нормативному аспекту данного вопроса. Главным результатом проведенного исследования является выдвижение идеи о нобходимости дальнейшего совершенствования законодательства о нормативно-правовых актах. Основным содержанием такого рода совершенствования должно стать нормативное отражение всех вопросов, связанных как с самими кодексами, так и с утверждающими их законами, где одновременно осуществляется урегулирование большинства вопросов, связаных со вступлением кодексов в силу.


## CODES IN THE LEGISLATION SYSTEM OF AZERBAIJAN REPUBLIC


**E.R.GULIYEV**


### SUMMARY


The object of studying in this article is a legal status and position of the codes in the legislative system of modern Azerbaijan Republic. Researching of this problem is based on observation o code’s legal status in Soviet period and during first years of independence in Azerbaijan. It has been proved, that the place of codes as special kind of statutory acts demands in the special image of fastening of its special place in hierarchy of statutory acts and also in decisions of the questions about special laws, accepted during the adoption of codification acts.